

# Vaqif ƏLİXANLI

Amansız ölüm qələm yoldaşımız Vaqif Əlixanlını aramızdan apardı.

Vaqif Ənvər oğlu Əlixanlı 13 oktyabr 1943-cü ildə Quba rayonunun Yerfi kəndində anadan olub. 1967-ci ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin kitabxanaçılıq şöbəsini bitirib. 1968-ci ilin avqustunda Azərbaycan SSR Televiziya və Radio Verilişləri Komitəsində əmək fəaliyyətinə başlayıb. Radionun ədəbi-dram baş redaksiyasında redaktor, sonra şöbə müdiri vəzifələrində işləyib. "Bulaq" və "Dünyanı bəzəyənlər" radio verilişlərinin yaradıcılarından biri olub. "XX əsr. İncəsənət" və "Palitra" televiziya verilişlərinə yazdığı "Rənglər" silsilə yazıları yüksək peşəkarlığı ilə seçilirdi. 1976-cı ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına baş redaktor vəzifəsinə dəvət alan Vaqif Əlixanlı ssenari üzrə Bədii Şuranın üzvü olub, eyni zamanda direktor müavini vəzifəsini icra edib.

1979-cu ildə respublika Mədəniyyət Nazirliyinin incəsənət və teatr şöbəsinin baş redaktoru, bir il sonra teatr və konsert müəssisələri idarəsinin rəisi təyin edilib. Onun rəhbərliyi altında Azərbaycanın teatr truppaları və musiqi heyətləri Yaponiya, Norveç, Türkiyə və başqa ölkələrdə, eləcə də keçmiş Sovet İttifaqının müxtəlif yerlərində ölkəmizi layiqincə təmsil edib. 1991-ci ildə AzTV-yə qayıdıb. "Xəbərlər", daha sonra ədəbi-dram studiyasının direktoru vəzifəsində çalışıb. "Qırxıncı otaq", "Sarı sim", "Nəbz" verilişlərilə tamaşaçı rəğbətini qazanıb. 1993-cü ildə Radioda Xalq yaradıcılığı baş redaksiyasını yaradıb və orada baş redaktor kimi fəaliyyətinə davam edib. Sonrakı illərdə "Space", ABBA, "Lider", qısa müddət "ANS" TV-də də baş redaktor vəzifələrində çalışıb.

2013-cü ildən 2021-ci ilədək "Qobustan" incəsənət toplusunun baş redaktoru olub. 2021-ci ildən ömrünün sonuna qədər Azərbaycan Yazıçılar Birliyi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinə rəhbərlik edib.

Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Erix Mariya Remark, Çingiz Aytmatov, Ernest Heminquey və başqa yazıçıların əsərləri əsasında hazırladığı televiziya və radio pyesləri ekranda və efirdə yer almışdır. Onun bədii tərcüməsində V.Rasputinin "Axır zaman", T.Uilyamsın "İstək tramvayı", A.Kondratyevin "Saşka", Rüstəm İbrahimbəyovun "Biganələr oteli", Alber Kamyunun "Qismət" pyesləri teatrlarda tamaşaya qoyulmuşdur. 2011-ci ilə Gənc Tamaşaçılar Teatrı Vaqif Əlixanlının "Əcəl atı" əsərini səhnələşdirib. Əsər Azərbaycan televiziyasında da nümayiş etdirilib. 2000-ci illərdə Çingiz Aytmatovun "Qiyamət" əsəri onun tərcüməsində Azərbaycan oxucusuna təqdim edilib. 2013-cü ildə özünün "Əkmə qəm ağacı", 2023-cü ildə "Söz və qələm" kitabları çapdan çıxıb. Bir çox televiziya filminin ssenari müəllifidir.

1972-ci ildə"Bulaq" verilişindəki uğurlarına görə "Qızıl qələm" mükafatına layiq görülüb. 1991-ci ildə AzTV-nin "Vətənpərvərlik ruhunda yazılan ən gözəl bədii əsər" müsabiqəsinin laureatı olub. Beynəlxalq Mövlanə müsabiqəsində "Dünyanın Mövlanəsi" pyesi II yeri tutub və əsər Türkiyənin "GÜAM" Beynəlxalq dərgisində dərc edilib. 2019-cu ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb.

Tanınmış yazıçı-publisist, dramaturq, səmimi, təvazökar insan Vaqif Əlixanlının işıqlı xatirəsi qələm yoldaşlarının, oxucularının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**